# Böyük ömrün yaşam faktı




Mayın 19-da M.F.Axundzadə adına Mərkəzi kitabxanada Xalq şairi Sabir Rüstəmxanlının çoxşaxəli yaradıcılıq yolunu əhatə edən və Azərbaycanın görkəmli şəxsiyyətləri seriyasından nəşr edilən "Sabir Rüstəmxanlı: Biblioqrafiya" kitabının təqdimat mərasimi keçirildi.

Tədbiri sözügedən kitabxananın direktoru Kərim Tahirov açdı. Bildirdi ki, sabah Sabir bəyin ad günüdür: "Onun yubileyini bu gözəl hədiyyə ilə qarşılayırıq. Daha bir hədiyyə isə Ədəbiyyat İnstitutunun hazırladığı və akademik İsa Həbibbəylinin ön sözü ilə nəşr edilən "Xalq şairi Sabir Rüstəmxanlı" monoqrafiyasıdır. Bayram bayrama qarışıb...".

AMEA-nın Ədəbiyyat İnstitutunun direktoru, akademik İsa Həbibbəyli çıxış edərək görkəmli şairin çoxşaxəli yaradıcılığından bəhs etdi: "Sabir Rüstəmxanlı oxucu etibarı qazanmış, yaradıcılığında vətəndaş düşüncəsini irəli aparan sənətkarlarımızdandır. Onun baş mövzusu vətən, azadlıq, müstəqillik anlayışları, xalqın taleyi ilə bağlı məsələlərdir. Türk dünyası aləminin dərk olunmasında, milli müstəqillik yolumuzun aydınlaşdırılmasında Sabir bəyin yaradıcılığının xüsusi rolu var. Onun yaradıcılıq idealları ilə ictimai-siyasi fəaliyyəti həmişə bir-birini tamamlayıb. O, bu cəhətdən örnək, nümunə olan şəxsiyyətdir".

AMEA-nın müxbir üzvü Tehran Əlişanoğlu bildirdi ki, müstəqillik dövrü hərəkatı yaranandan, bu hərəkatın formalaşmasına yön verən insanlardan biri də Sabir Rüstəmxanlı olub; həm ədəbi, həm də siyasi fəaliyyəti ilə bir arada.

Millət vəkili Fəzail İbrahimli qeyd etdi ki, S.Rüstəmxanlı yaradıcılığında millətin ruhunu yaşadan, bu ruhun ötürücüsü, əlaqələndiricisi olan şəxsiyyətdir: "Otuz ildir ki, onunla həmfikir və silahdaşıq. Bilirəm ki, Sabir bəy yaradıcılığının bütün mərhələlərində milli düşüncənin formalaşmasına xidmət edib. O, həmişə milli ruha və haqqa çağırış edib..."

Xalq yazıçısı, AYB-nin birinci katibi Çingiz Abdullayev çıxışında vurğuladı ki, S.Rüstəmxanlı bütün fəaliyyəti boyunca dəyişməyən, özünə və ideallarına, dövlətçilik prinsiplərinə sadiq qalan sənətkardır.



Xalq yazıçısı Afaq Məsud dedi: "Sabir bəyin ömrünün hər bir günü ədəbiyyatımızın, milli kimliyimizin dərk olunması üçün əlamətdar gündür. Onun ali missiyası millətə xidmət yoludur. O, öz ömrünü xalqın inkişafı yolunda fəda edənlərdəndir. Bütün varlığı ilə o yola xidmət edir. Təqdim olunan kitab böyük bir ömrün yaşam faktıdır".

Professor Qəzənfər Paşayev bildirdi ki, S.Rüstəmxanlının yaradıcılığı qürur, iftixar doğuran, çoxşaxəli yaradıcılıqdır: "Onun milli təfəkkürü folklordan gəlir. Sabir Rüstəmxanlı nadir keyfiyyətlər daşıyıcısı olan, bütöv şəxsiyyətdir..."

Görkəmli şair Məmməd İsmayıl dedi: "Sabir bəylə mənim ortaq taleyimi, qədərimi ayırmaq qeyri-mümkündür. Yəni, Kürlə Araz kimi. Onun ilk kitabının yaranması mənim gözlərim önündə olub. Anam Sabiri öz oğlu bilirdi. Onun anası da məni on dörd oğlunun heç birindən seçib-ayırmırdı. Bu, bir dostluq, sədaqət örnəyidir. Sabir bəyin adıyla bağlı bu tədbir, bu gün mənim qürur duyduğum gündür..."

Professor Elton Məmmədov S.Rüstəmxanlıdan böyük vətəndaş, görkəmli sənətkar kimi bəhs etdi.

Akademik Nizami Cəfərov dedi: "Bütün tarixi oyanışlar, azadlıq duyğuları ilk olaraq ədəbiyyat adamından başlayıb; inqilabçılıq da, vətənçilik də! Bu dəyərlərə sahiblik Sabir Rüstəmxanlının halal haqqıdır. O, bütün səviyyələrdə mükəmməl və səmimidir. Sabir bəy çox gənc yaşlarından millətin əhvali-ruhiyyəsi ilə böyüyüb. O, dost qabağına da, düşmən önünə də çıxarıla bilən nadir şəxsiyyətlərdəndir; tam miqyası və intellekti, məntiqi ilə bir arada".

Tanınmış naşir Əlövsət Ağalarov qeyd etdi ki, S.Rüstəmxanlı Azərbaycan ədəbiyyatının, ictimai-siyasi tarixinin parlaq simalarındandır.

Sonda çıxış edən Sabir Rüstəmxanlı tədbirin təşkilatçılarına və iştirak edənlərə təşəkkürünü bildirdi, ədəbiyyat və mədəniyyət məsələlərilə bağlı fikirlərini bölüşdü.

*Sərvaz Hüseynoğlu*

**Ədəbiyyat qəzeti.- 2022- ci il.- 21 may.- S. 11.**